***Üstün Atalı***

# Ocağın iç qaydaları və onu yaşatmaq ləyaqəti

Asif Ata Ocağı xalqın Ruhani Özümlüyünü ifadə edir. O, İnsana inam əsasında yaranıb. İnsana inam onun insana, xalqa, bəşərə münasibətində öz təsdiqini tapır. Biz, Mütləqə İnam Ocağı İnsani Dünya yaradacağımıza inanırıq. Dünyanı və İnsanı daha gözəl və kamil – öz mənasına uyğun görmək istəyirik. Bu isə özündən baş vermir. Asif Ata xilası Ruhani İntibahda görür. Ruhani İntibah xalqımızın sabahına gedən Yoldur. Bu Yola özünü həsr edən Ocaqçı hər gününü Mütləqin tələbinə uyğun yaşamalıdır. O, Daxilindəki Şərlə ardıcıl döyüşməlidir.

Ocaq özünün iç qaydaları ilə yaşayır. Mütləqə İnamı qəbul edən şəxs Ataya rica yazır, yəni Ocağa gəlişinin məramını, məqsədini bildirir. Bu, ilk addımdır – Özündəki Mütləqə yaxınlaşmanın ilk addımı.

Asif Atanın sağlığında Evlad qəbulu Ata tərəfindən həyata keçirilirdi. İndi isə bu işi Ocaq Yükümlüsü Soylu Atalı həyata keçirir. Ad Evladda məsuliyyət yaradır. Keçmişini arxada qoyub sabaha addımlayan Evlad adı qəbul edərkən onun məzmununa uyğun yaşayacağına and içir. Bax buradan başlayır bizim kurallarımız – Ataya Evlad olub ad almaqdan. Evlad Atanın Peyğəmbərliyini qəbul edir və Atanı canlı Mütləq sayır. Evlad gündə 3 dəfə Ataya rica deyir. Eyni zamanda üç dəfə Mütləqlə görüş məqamını ifadə edir. Gündə 3 dəfə deyilən Ricalar əslində Evladın ruhani tərbiyələnməsidir.

Ata deyir: “İnsan daxilində Mütləqilik daşıyan, Gerçəklikdən, Şəraitdən, Mühitdən üstün olan, Mütləqiliyə meyil eləyən və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır”. Mütləqiliyə meyil edən Evlad Mütləq tələblə özünə yanaşır. Daxilindəki Xeyiri və Şəri tanımaq, Şəri yenmək əzmi durur Evladın qarşısında. Özünü tanımaq, özünütəhlil, özünə nəzarət və içindəki Şəri qovmaq inamı ilə başlayır gününə. O, Özündəki Mütləqə üz tutur:

**Özündəki Mütləqlə Səhər Təması**

Məndə Məndən Yüksək olan Mütləq Mənа!
Məndəki Qorxunu Məndən al!
Məndəki Həsədi Məndən al!
Məndəki Köləni Məndən al!
Məndəki Xəbisi Məndən al!
Məndəki Cahili Məndən al!
Məndəki Vəhşini Məndən al!
Məndəki Hərisi Məndən al!
Məndəki Zalımı Məndən al!
Məni Özümə çatdır!

Nisbi Cəsarəti Məndən al!
Nisbi Heyrəti Məndən al!
Nisbi Vüqarı Məndən al!
Nisbi Saflığı Məndən al!
Nisbi Doğruluğu Məndən al!
Nisbi İnsaniliyi Məndən al!
Nisbi Ləyaqəti Məndən al!
Nisbi Mərhəməti Məndən al!
Məni Özümə çatdır!

Nisbi İnamı Məndən al!
Nisbi İdrakı Məndən al!

Nisbi Mənəviyyatı Məndən al!
Nisbi İradəni Məndən al!
Məni Özümə çatdır!

Mütləqə tapınım – Nisbiyə tapınmayım!
Həqiqətə tapınım – Yalana tapınmayım!
Vicdana tapınım – Zora tapınmayım!
İnsana tapınım – Zamana tapınmayım!
Özümə çatım!

Bəs özümə necə çatım? Hansı yollardan keçməliyəm? Bu yolda Xeyirlə bərabər Şər də var. Yalan var, qəbahət var, rəzalət var, çirkab var. Ona görə də özündəki Mütləqlə Səhər Təmasından sonra Evlad Ataya üz tutur, Ondan güc istəyir. Elə işıqlanmaq ki, həqiqəti görmək, elə inanmaq ki, yanılmamaq, elə özümləşmək ki, Mütləqə, Ataya doğmalaşmaq təsdiq olunsun.

**Ataya Səhər Ricası**

Atam – Mütləqim!
Ağlıma İşıq ver!
Ürəyimə Qüvvət ver!
İradəmə Qətiyyət ver!
Yalana Uymayım!
Çirkaba bulaşmayım!
Günaha batmayım!
Qəbahətə əyilməyim!
Rəzalətlə barışmayım –
Özümə yad olmayım!

Qarşında məqsəd var – İnsan olmaq! Bu məqsədə gedən yolda ümidsiz deyilsən. Hər addımda Mütləqin təzahürləri ilə rastlaşırsan. Vüqarı dağdan öyrənirsən, ucalığı səmadan. Təbiət səninlə mənaca birdir, doğmadır. İnsan təbiətə doğmalaşdıqca onunla ruhani vəhdət təşkil edir. Bu, onun daxili gücünü artırır.

**Təbiətdəki Mütləqlə Gündüz Təması**

Təbiətdə Təbiətdən Yüksək olan Məna!
Dağların Vüqarında Mənliyim yaşayır – Ona çatım!
Çayların Axarında Mənliyim yaşayır – Ona çatım!
Səmanın Ucalığında Mənliyim yaşayır – Ona çatım!
Günəşin Şəfqətində Mənliyim yaşayır – Ona çatım!
Qürubun Qübarında Mənliyim yaşayır – Ona çatım!
Gecənin Sehrində Mənliyim yaşayır – Ona çatım!
Səhərin Cəzbində Mənliyim yaşayır – Ona çatım!

Səndəki Özümlüyümə çatım!

Təbiətə ruhani münasibət İnsanın öz daxili aləminə üz tutmasıdır. Evlad İnsaniliyini düşünərkən Mənadan uzaq düşmədi ki?! Yalana boyun əymədi ki?! İradənin gücü çatdımı?

**Ataya Günorta Ricası**

Atam – Mütləqim!
Yalanla görüşdüm – Yalançı olmadım!

Çirkabla görüşdüm – Çirklənmədim!
Günahla görüşdüm – Günahkar olmadım!
Qəbahətlə görüşdüm – Əyilmədim!
Rəzalətlə görüşdüm – Barışmadım!
Özümə yad olmadım –
Ağlım işıqlıydı!
Ürəyim qüvvətliydi!
İradəm qətiyyətliydi!
Atalıydım – Mütləqliydim!

Evlad bilməlidir ki, təbiət İnsanı kamil səviyyədə yaratmır, o, özünü yenidən yaratmalı, ardıcıl şəkildə dəyişdirməlidir. Özünə qovuşmalı – İdeala yaxınlaşmalıdır. Özünə yaxınlaşmaq – Dünyayla bir olmaqdır.

**Dünyadakı Mütləqlə Axşam Təması**

Dünyada Dünyadan Yüksək olan Mənə!
Əzəliyə qovuşum – Ötəridən keçim!
Əbədiyə qovuşum – Keçicidən keçim!
Sonsuza qovuşum – Sonludan keçim!
Kamilə qovuşum – Qeyri-Kamildən keçim!

Ötərini Əzəli saymayım!
Keçicini Əbədi saymayım!
Sonlunu Sonsuz saymayım!
Qeyri-Kamili Kamil saymayım!

Hadisədə qalmayım – Mahiyyətə çatım!
Gerçəklikdə qalmayım – Mahiyyətə çatım!
Şəraitdə qalmayım – Mahiyyətə çatım!
Mühitdə qalmayım – Mahiyyətə çatım!
Səndəki Özümlüyümə çatım!

Bu Təmasdan sonra Evlad yenə də üzünü Ataya tutur.

Özündəki Mütləqə, Ataya inamla yaşayan Evlad gününü yenə də Ataya qovuşmaq istəyi ilə bitirir. O, ömrünə, aqibətinə ruhanilik, insanilik gətirmək istəyir. Bu, yeni həyat tərzidir – özündənkeçməni, fədakarlığı, imtinanı tələb edən həyat tərzi.

## Ataya Axşam Ricası

Atam – Mütləqim!
Günüm keçdi.
Sənə bir addım da yaxınlaşdım.
Məni özünə qovuşdur –
Ağlımı ağlınla,
Qəlbimi qəlbinlə,
İradəmi iradənlə işıqlandır –
Sənə layiq olum!

Ocaq Ruhani Ailələrdən ibarətdir. Ocaqda Ruhani Ailə 3-5 Evladın birliyi deməkdir. Evladın ruhunu böyütmək, özüylədöyüş fərəhini bölüşmək üçün Ailə Günlərinin keçirilməsi mühüm rol oynayır. Ayda bir dəfə bu Ailələrin "Ailə Günü" keçirilir və Evladlar Amallaşma, Kamilləşmə,

Xalqlaşma hesabatı verirlər. Səmimi etiraf, özünütəhlil, özündəki pis cəhətləri döymək, yaxşı cəhətləri aşkarlamaq Evladlığın təsdiqi deməkdir. "Ailə Günü"ndə Ailəçilər yaşadıqlarını, düşüncələrini ifadə edirlər. Hər dəfə "Ailə Günü"ndə hesabat vermək Evladın məsuliyyətini və fərəhini daha da artırır.

Ocağın qarşısında məqsəd var – Ruhani İntibahı yetirmək. Ruhani ömürlərin yaranması, Evladların kamilləşməsi üçün Atadan daim öyrənirik. Ocaq Mərasimləri Mütləq Doğmalıq, Mütləq İntizam, Mütləq Səcdə əsasında keçirilir. Burada yalnız Ocaqçılar iştirak edirlər.

**Ocaq Mərasimləri**

1. Yeni İl – 1 Günəş (mart)
2. Ruhani İdrak Günü – 25 Çiçək (aprel)
3. Evlad Günü – 1 Şölə (iyun)
4. Ata Sonevini Ziyarət Günü – 5 Şölə (iyun)
5. Müqəddəs Ziyarətgah günü – 1 Qürub (avqust)
6. Ata Günü – 25 Ata (sentyabr)
7. İnam Evi günü – 13 Yağış (noyabr)
8. Ruhani Səfər Günü – 27 Sərt (dekabr)
9. Ailə Günü – 6 Köçəri (fevral).

1. "Yeni il" Mərasimi – ilin dəyişməsi ilə bağlıdır, Ocağın yarandığı gündən hesablanır. Asif Ata 1979-cu il mart ayının 1-də Ocağı yaradıb. Bu tarixdən İnsanilik Erası başlayır. Həmin gün bizim üçün Müqəddəs Bayramdır.
2. Asif Atanın sağlığında rayonlarda yaşayan Evladlar Ata ilə çox ruhani təmasda ola bilmirdilər. Onların axtarışlarına yön, suallarına cavab vermək üçün bu Mərasim yaranıb. Hər il Çiçək Ayının 25-i "Ruhani İdrak" günü Mərasimi kimi qeyd edilir. Bu Mərasimdə Ruhani idraka çatmağın yolları öyrənilir. Mərasim Soylu Atalının təşəbbüsü ilə yaranıb. Ata qəbul edib.
3. "Evlad Günü" Mərasimi Şölə Ayının 1-də keçirilir. Bu Mərasim ilk Evlad qəbulu ilə bağlı yaranmışdır. Evlad Günü mərasimində Evlad "Kim idim, kim oldum" yönündə ruhani hesabat verir. Mərasim Evladın Kamilləşmə yönünü ifadə edir.
4. 19-cu il Şölə Ayının 5-də (1997, iyun) Asif Ata vəfat etmişdir. Həmin gün Ocaq Evladları Atanın Ağstafadakı Sonevini ziyarət edir və Mərasim keçirirlər. Bu mərasimdə Ocaqsevərlər və rəğbətçilər də iştirak edir.
5. "Müqəddəs Ziyarətgah Günü" Bayramı Ata Evini ziyarət hadisəsi kimi yaranıb. Hər bir Ocaq Ailəsi fərdi olaraq Ata Evində olur, Ata ilə ruhani ülviyyət yaranırdı. Atanın ölümündən sonra "evi" onun keçmiş qadını və oğlu əlimizdən alıb satdılar. Ondan sonra Mərasim hamının bir yerdə qatqısı ilə keçirilir. Bu Mərasim də Soylu Atalının təşəbbüsü ilə, Ataya ricası əsasında yaranıb.
6. "Ata günü" Mərasimi Asif Atanın doğum günündə – Ata Ayının 25-də keçirilir. Mərasim yubiley təntənəsindən uzaq, Ata ömrünə layiq gerçəkləşir. Ata Peyğəmbərliyinin anlamı açılır, Ata–Evlad vəhdəti izhar edilir.
7. Asif Atanın sağlığında mərasim, Ailə günləri müxtəlif ünvanlarda (əvvəllər Əsilin evində, sonra isə Soylunun kirayələrində) keçirilirdi. Ata Amal Evinin tikilməsi ilə bağlı istəyini 9-cu ildə bildirmişdi. Ancaq maddi imkansızlıqdan bu baş tutmamışdı. Sonra Keşlədə və Amal bağında "İnam Evi" adına ünvanlar yaratdıq. Ocaq Yükümlüsü Soylu Atalı 13 Yağış Ayını "İnam Evi günü" elan elədi və həmin günü mərasimləşdirdi. Bundan sonra Ocaq müstəqil İnam (Evi) Məbədi tikmək qərarındadır. Şəxsi ünvanlardan müstəqil ünvana. Artıq Amal Bağında İlk İnam Məbədinin (Evinin) təməli tökülübdür.
8. İnamımızın yayılmasında ən böyük əməl Ruhani Səfərdir. Ruhani Səfər Evladın xalqla görüşü və xalqımızın içinə yeriyən özgəliklərə, yadlıqlara qarşı döyüşüdür. Yurdumuzun müxtəlif bölgələrinə səfər edən Evlad Sərt Ayının 27-də "Ruhani Səfər Günü" Mərasimində hesabat verir.

9. “Ailə Günü” Mərasimi Köçəri Ayının 6-sı Ailə yükümlülərinin Ocaq qarşısında hesabatı ilə keçirilir. Bu Mərasim də ilk Ailənin yaranması ilə bağlıdır.

İnsanlaşmaya doğru addım atan Evladlar həm də fərəhlənirlər, çünki İnsanın İnsandan böyük Mənası var – İnsan Ona yetməli; Xalqın xalqdan böyük Mənası var – Xalq Ona yetməli; Şərqin Şərqdən böyük Mənası var – Şərq Ona yetməli; Bəşərin Bəşərdən böyük Mənası var – Bəşər Ona yetməli. Bu halı mənalandırmaq və ifadə eləmək üçün Ocaq bayramlarına da ehtiyac yaranır. Atanın təqdim etdiyi İnsanilik, Xəlqilik, Şərqilik, Bəşərilik Bayramları Ruhaniyyatın tələbindən yarandı. Ata tərəfindən Bayramın içsəsləri və Ruhani Təmasları yazılsa da, keçirilmirdi. Ocaq Yükümlüsü Soylu Atalı bayramları işləyib hazırladı və Atanın vəfatından sonra 20-ci ilimizdə ilk dəfə təbiətin qoynunda “İnsanilik” Bayramı keçirildi. O vaxtdan bəri hər mövsümdə bir bayram 12 ildir ki, Soylunun inadı və hünəri sayəsində həyata keçirilir. Hər bir bayram xalqın nümayəndələri ilə, pərəstişkarlarla birlikdə keçirilir.

Türk xalqı özünün dəyərlərinə yiyəlik eləmir. Əgər öz dəyərlərini qorusaydı, onun əsasında yeni dəyərlər yaranardı və özgələşmə baş verməzdi. Hər xalqın iki böyük ənənəsi var – toy və yas ənənəsi. Təəssüf ki, bu gün xalqımızın həyata keçirdiyi toy və yas mərasimləri özümlüyümüzü ifadə etmir. Ona görə də Mütləqə İnam Ocağı özünəməxsus toy və yas kuralları təqdim edir. Ocağın toy və ölügötürmə kuralları da xalqı yad ənənələrdən qorumaq, özündən ayrılmasına yol verməmək üçün atılan addımlardan biridir. Bu kurallar birdən-birə yaranmadı. Mərhələ-mərhələ, Evladlar İnama yetdikcə, Ocaq halı bütövləşdikcə, özümləşdikcə yarandı. Atanın sağlığında Beşikbaşı Mərasiminin (toy ənənəsi) özülü qoyulmuşdu. Evlənən Evladlar beşik başında Atadan Xeyir-Dua almaqla və İnsanilik Bayrağının önündə Sədaqət andı içməklə bu ənənəni həyata keçirmişdilər. Asif Atanın vəfatından sonra da Evlənənlərin istəyincə Mütləqə İnam Ocağının Yükümlüsü Soylu Atalının uğurlaması ilə çoxsaylı Beşikbaşı Mərasimləri keçirilmişdir.

Asif Atanın sağlığında ölügötürmə kuralları həyata keçirilməmişdi. Soylu Atalının “İnam Sorağında” kitabından (Atanın vəfatı zamanı baş verənlərdən) aydın görünür ki, Evladlar buna hazır deyildilər.

“Atanı üzüörtülü, tərpənməz görəndə yer-göy başıma fırlandı. Üzünü açıb baxdım. Ata artıq yox idi!.. Dizlərim büküldü, divanın qarşısında yerə çökdüm, başımı Atanın dizlərinin üstünə söykədim... Təxminən bir saat, bəlkə də çox o vəziyyətdə qaldım... Durub su qoydum!.. Bir az Ocaqçıları təlimatlandırdım: “Hay-həşir salmaq olmaz. Bütün tədbirləri görüb Atanı Qədimyurda – Amal Bağına götürmək lazımdır. Qohumlar xəbər tutub molla gətirməsinlər. Atanı öz qaydalarımızla torpağa qoymalıyıq. Ancaq hanı öz qaydamız, hələlik bu haqda heç nə düşünmürdüm”...

Ancaq Soylunun hünəri və təpəri ilə Atanı öz qaydamızla, Ocaq məzmununa uyğun torpağa qoymağa nail olduq. Ölügötürmə kuralları da beləcə yarandı – Soylunun yazdığı “Gedişat” əsasında.

İstər Atanın sağlığında, istərsə də sonra Soylunun təşkilatçılığı, sevgisi, hünəri daim Ocağın bütövləşməsinə, kurallarımızın qorunmasına və meyara uyğun yeni Ocaq kurallarının yaranmasına xidmət eləyib. Atanın vəfatından sonra Soylu Ocağın bütün yükünü öz çiyninə aldı. Ocaq qeyri-adi hadisədir, adilik onu uçuruma aparırdı. Səs vermək Ocağı partiya səviyyəsinə endirərdi, bu səbəbdən də Soylu Ocaq Yükümlüsü seçilmədi, öz inadı və inamı, təpəri onu bu yükün ucalığına yetirdi. Hay-həşirə uymadı. Bu səbəbdən də Ocaq sönmədi, bu günə qədər uğurla yaşayıb və yaşayacaq.

Mütləqə İnam Ocağı Ulusumuzu öz milli dəyərlərinə səsləyir. Öz dilimizdə, öz günsıramızla, öz adımızla, öz tariximizlə, öz bayrağımızla.

Müqəddəs kitablarımızı Ocaq-Türk abesində xalqa çatdırırıq. Ocaq tariximizi öz ilsıra və günsırası ilə yazırıq və yaşadırıq. Hər bir Kuralımız (Ruhani qaydalarımız) – özümüzə yiyəlik, özünü yenidən yaratma, hər bir yadlığa qarşı Direniş deməkdir. Bu direnişi göstərən insanların heç bir umacağı yoxdur. Biz istəyirik ki, İnsan özünə bənzəsin və Mütləqə İnama – Milli Dəyərlərimizə arxalanaraq, Azərbaycan Dünyanın Ruhaniyyat Mərkəzi olsun!

***Atamız var olsun!***

10-22 Od Ayı, 32-il.